# TANIŞ OLUN – AYTƏKİN ƏZİZ

**Bir tələbə qız- Lənkəran Dövlət Universitetinin tələbəsi-Aytəkin Əziz şeirlərini mənim ünvanıma göndərib. Mən də bu şeirləri oxudum. Heç üzünü görmədiyim bu tələbə qızın istəyi odur ki, şeirləri barədə fikir bildirim.**

Ədəbiyyata gəlmək bəlkə də asandır, amma ədəbiyyatda qalmaq bu qədər kütləvi şeir izdihamında qalmaq çox çətindir. Gərək istedadın ola ki, şeir aləmində hər çətinliyə dözəsən. Mən bu istedad işartılarını Aytəkində görürəm.

Böyük rus şairi Sergey Yesenin yazırdı ki: "Bəli, şair olmaq odur ki, gərək, Pozmayıb həyatın ilk qanununu, Öz damarlarından qanı çəkərək Vurub isidəsən özgə qanını. Qoy lap qurbağanın nəğməsi olsun, Dünyaya təzə bir nəğmə ver ancaq". Aytəkin, qızım, sənin şeir yazmaq istedadın var, amma bu istedadı gərək cilalayasan, hər şeirini qələmə alanda fikirləşəsən ki, mən bu şeirdə təzə bir söz deyə biləcəyəmmi?Axə, şeir obrazlarla, orijmnavl bədii təsvir vasitələori ilə düşünmək deməkdir.



Gənclik sevgi ilə doludur, hamı qəlbindəki o sevgi hisslərini qələmə alır. Amma sevgi təkcə kiməsə öz dolu ürəyini boşaltmaq demək deyil. Vətən sevgisi var, ana sevgisi var, təbiətə sevgi var, gözəlliyə sevgi var.

Bir sözlə, yazılmalı çox şey var. Bir solmuş yarpaqdan da şeir yazmaq olar, bir ananın oğul intizarrından da, bir şəhid qanından da... Şeir ağlamaq-sızlamaq, göz yaşı tökmək deyil.

Sənin şeirlərindən bir neçəsini seçdim, istəyirəm ki, onları hamı oxusun, ondar bu şeirlər barədə fikir bildirsinlər. Hələlik sənə uğurlar arzulayıram. Və inanıram ki, gələcəyin gözəl bir şairi yaşayır Lənkəranda.

**Hörmətlə: Vaqif Yusifli**

*Gözlədim günəşi, qarı,*
*Keçdi xoşbəxtlik qatarı.*
*Zaman deyil günahkarı,*
*Elə özüm gecikmişəm...*
*Yollar qaldı hey yarıda*
*Gah dənizdə, gah quruda.*
*Ayrılanda hasarı da*
*Güldən, çiçəkdən çəkmişəm...*
*Pəncərəyə, qapıya həm,*
*Göz yaşları salıbdı nəm.*
*Kərpici dərd, suvağı qəm*
*Bu evi özüm tikmişəm...*

***

*Bilmirəm amma...*
*Sən mənim eşqimi dana bilərsən,*
*Bir nağıl, bir yuxu sana bilərsən.*
*Səni sevdiyimi qana bilərsən,*
*Niyə sevdiyimi bilmirəm amma...*
*Yenə həsrətinin yağışı yağır,*
*Qəlbimə "sən" damır bax ağır-ağır.*
*Üreyim nə yerə, nə göyə sığır,*
*Niyə sevdiyimi bilmirəm amma...*
*İçində qəm yatan gözünü sevdim,*
*Qəlbini, ruhunu, özünü sevdim.*
*Mən sənin səhvini, düzünü sevdim,*
*Niyə sevdiyimi bilmirəm amma...*
*Əlim saçlarında oynamasa da,*
*Səsini eşidim olsa qısa da.*
*Əvvəl-əvvəl qanım qaynamasa da,*
*Niyə sevdiyimi bilmirəm amma...*
*Allah çıxararaq önümə səni,*
*Hədiyyəmi verib, dərd mənə səni?*
*Bu qədər uzaqkən mən yenə səni*
*Niyə sevdiyimi bilmirəm amma...*
*Həsrəti, hicranı, qəhəri bildim,*
*Gecə nə çəkmişəm səhəri bildim.*
*Bizi ayrı salan şəhəri bildim,*
*Niyə sevdiyimi bilmirəm amma...*
*Özümü boş, quru saxsı bilirəm,*
*Ömrünü ömrümün naxşı bilirəm.*
*Səni sevdiyimi yaxşı bilirəm,*
*Niyə sevdiyimi bilmirəm, amma...*

## *Rol...*

*Bəzən mənasız olur "hər nə"yin də, "heç"in də,*
*Yerin olmayanlara yer olmasın içində.*
*Sanma sənə deyirəm, elə mənim üçün də*
*"Yersizlər" bir kol imiş...*
*Yalanda da doğru var, olmadın yalan qədər,*
*Hər insan insan olur vicdanı olan qədər.*
*Qəlbimi almadılar ahımı alan qədər*
*Ahım necə bol imiş...*
*Gözdən düşüb ölənin tutulmaz daha yası,*
*Qalmağından yaxşıdır inan ki qalmaması.*
*Öz-özündən qaçmağa yolunun olmaması*
*Özü də bir yol imiş...*
*Elə ki gecə düşür, məni götürür fikir,*
*Bu dünyanı başıma gah yıxırdır, gah tikir.*
*Hərənin bir tərəfi ağrıdan əziyyət çəkir,*
*Məndəki də sol imiş...*
*Ürək nə qəribədir, bilinmir solu, sağı,*
*Adama yaxın olur yaxına qoymadığı.*
*Bu həyat səhnəsində hamının oynadığı*
*Sən demə bir rol imiş.*
*İnana bilmərəm...*
*Öldürmə özünü indi bu qədər,*
*Mən sənə inana bilmərəm daha...*
*Edən etdiyini yenə də edər,*
*Mən sənə inana bilmərəm daha...*
*Mənə "sən" deyilsən, nə "siz" deyilsən,*
*Rahat ol, sağalmaz bir iz deyilsən.*
*Sən ki, pak deyilsən, təmiz deyilsən,*
*Mən sənə inana bilmərəm daha...*
*Arabir gizlicə gözün dolsa da,*
*Qəlbin dərgahıma namaz qılsa da,*
*Eşqin qürurundan böyük olsa da,*
*Mən sənə inana bilmərəm daha...*
*Səni ürəyimdə gizli gömmüşəm,*
*Nə söz danışmışam, nə də dinmişəm.*
*Bax, mən də çevrilib "sən"ə dönmüşəm,*
*Mən "sən"ə inana bilmərəm daha...*
*Əzabın içinə çox atma məni,*
*Başqa gözəllərlə bir tutma məni.*
*Mən axı demişdim aldatma məni,*
*Mən sənə inana bilmərəm daha...*
*Yalanmı? Doğrumu? Bilmədim nəsən,*
*Keçdim günahından mənə neyləsən...*
*Doğru da söyləsən, düz də söyləsən,*
*Mən sənə inana bilmərəm daha...*

## *Uzaq yaxınlıq...*

*Sənin də yanında uşaqlaşmasam,*
*Bəs kimin yanında uşaqlaşım mən?!*
*Sən də mi arada qoyursan məni?*
*İndi səndən də mi uzaqlaşım mən?*
*Nə uzaq qalırsan uzağım kimi,*
*Nə də yaxın kimi yaxın olursan.*
*Nə zaman darıxsam həsrətdə qaldım,*
*Bəs sən darıxanda harda qalırsan?*
*Bilirəm həmişə yol çəkir gözüm,*
*Bilmirəm bu yolun harasındayam.*
*Bizim aramıza şəhərlər girir,*
*Yaxınla uzağın arasındayam...*
*Məni öldürür bu uzaq yaxınlıq,*
*Gözümdən yorğunluq elə tökülür...*
*Daha gecələri yata bilmirəm,*
*Yuxum da taqətim kimi çəkilir...*
*Ayrıla bilmərəm səndən əzizim,*
*Sən ki məsum-məsum tək baxanımsan.*
*Yaxınımda olan uzaqdır mənə,*
*Sənsə uzağımda ən yaxınımsan.*

## *Amerikanın qardaşı...*

*Ey bu böyük ölkənin sənəddə "vətəndaşı",*
*Sən ki, ola bilmədin bu Vətənin bir daşı...*
*Bu qürbət düşkünlüyü hardan hopub canına?*
*Avropanın dostusan, Amerikanın qardaşı...*
*Bu tənha küçələri bir də izdihamda gör,*
*Bir bədənlik tabutda, bir qəbirlik qumda gör.*
*Hər şəhidin bir ovuc torpağı da Vətəndi,*
*Belə görə bilmirsən, gözlərini yum da gör...*
*Bu dil uzatmağından bir dəfə keç olmasa,*
*Əlini vicdanına bir uzat heç olmasa.*
*Yeri səngər deyilsə köksündəki ürəyin,*
*Cəbhənin arxasında susmağı seç olmasa...*
*Güllə səsi yağışın səsi deyil xoş gələ,*
*Xoş gün üçün meydana gərək neçə baş gələ...*
*Kaş igidlər, ərənlər, nər oğullar yerinə*
*Düşmənin gülləsinə xəyanətkar tuş gələ...*
*Məndə silah tutmağa olsa idi ixtiyar,*
*Heç olmadığım qədər olacaqdım bəxtiyar.*
*Əsgərlikdən qaçanı hər çağırış "tutanda"*
*Ona cəhənnəm gəlir cənnət olan bu diyar...*
*Mən Vətənin həm qızı, həm də ki bir oğluyam,*
*Kim də bağlı olmasa, mən vətənə bağlıyam!*
*Parçalanmış içimdə bir Vətənim bütövdür,*
*Şuşalıyam, talışam, aranlıyam, dağlıyam!*

Ədalət .-2024.- 12 iyul,№(25).-S.13.